# ƏLİ ƏMİRLİNİN «MESENAT» PYESİNDƏ TARİXİ GERÇƏKLİYİN BƏDİİ ƏKSİ

**HƏQİQƏT NƏBİQIZI**
*Bakı Dövlət Universiteti*

Azərbaycan xalqının fədakar oğulları xalq üçün etdiyi fədakarlıqlar hesabina xalqın tarixi yaddaşında yer tuta bilmişlər. Həmin şəxsiyyətlərin millətin övladları tərəfindən öyrənilməsi, yəni istər tarixçilərin, istər ədəbiyyatşünasların bu insanların həyat və fəaliyyətlərinə müraciəti xalqın sevgisinin göstəricisidir. Bu səbəbdən də Əli Əmirli kimi bir yazıçı da «Mesenat» əsəri ilə Hacı Zeynalabdin Tağıyevin həyatına müraciət etməyi özünə bir vətəndaş və yazıçı kimi borc bilmiş, bununla da kifayətlənməyərək Hacının timsalında ümumazərbaycanın dərdinə, probleminə işıq salmağa cəhd etmişdir. Xeyirxah işləri və mesenatlığı ilə xalqın dərin hörmətini, böyük məhəbbətini qazanmış, yaddaşlarda pozulmaz izlər qoymuş Hacı Zeynalabdin Tağıyevin ailə dramına həsr edilmiş «Mesenat» əsəri oxucuların – tamaşaçıların böyük marağına səbəb oldu.

Tarixən ziyalılarımızın başına gələn müsibətlər, faciə dolu həyatları bu gün açılıb-çözülür, tarixin qaranlıq məqamları millətə açıqlanır. Peşəkar tədqiqatçılar tarixin qaranlıq səhifələrini açmaqla kifayətlənməmişlər, həqiqi tarixin bir ibrət məktəbi olduğunu dərk edərək, insanlığı, demək olar ki, davamlı olaraq təkrarlanan tarixi dərslərdən ibrət götürməyə çağırmışlar.

Əli Əmirlinin «Mesenat» əsəri real tarixi gerçəkliyin bədii ədəbiyyatda əksi baxımından dəyərli sənət əsərlərindən hesab oluna bilər. Belə ki, əsərin süjet xətti tarixi zamandan götürülsə də, müasir oxucunu həyəcanlandıran, düşündürən, bu gün də örnək ola biləcək keyfiyyətlərdən xali olmayan bir sənət əsəridir. Müəllif insanlığın əbədi problemini oxucusuna, tamaşaçısına tarixi prizmadan təqdim etmişdir ki, bu da öz növbəsində tarixi və müasir gerçəkliyin bədii inikasıdır.

Həm «Mesenat» əsərində, həm də həyatda oxuyub yazmağı bilməyən, lakin böyük zəhmətsevərliyi və yetənəyi sayəsində dünya siyasi inkişafını, mənəvi dəyərlərin əhəmiyyətini görə bilən Tağıyev öz maddi və mənəvi siması ilə millət atası, xalq atası səviyyəsinə yüksəlir. İnqilabların, müharibələrin aramsız baş verdiyi bir şəraitdə canını və sərvətini götürüb xaricə qaçmaq haqqında deyil, torpağı, vətəni və xalqı, mədəniyyəti və ziyalıları haqqında düşünür. Cavan zövcəsi Sona xanımın uşaqları götürüb xaricə getmək yalvarışlarına belə baxmayan Hacı, millətin ağır günündə, yaşadığı siyasi burulğanda xalqı qoyub rahatlığa qaçmağı vicdanına yerləşdirə bilmir.

Artıq bolşeviklər Bakıdadır. Nəriman Nərimanov özü Hacının evinə gəlir. Hacının hər kəsə bir ibrət olacaq səbri, insanlığı müəllif tərəfindən xüsusi və məqsədyönlü olaraq çatdırıla bilmişdir. Hacı ən ağır

xəbərə belə gülümsəməklə öz etirazını, təəccübünü bildirir. Hacının yüksək insanpərvərliyinin müəllif tərəfindən maraqlı açıqlanması vardır. Hər kəs Hacını Allah adamı kimi tanıyır. Müəllif də Hacının yüksək insani keyfiyyətlərini onun müsəlman olduğu ilə əlaqələndirir. Məsələn, Hacının oxutdurub təhsil verdiyi, çörəklə, işlə təmin etdiyi Nərimanova münasibəti də çox maraqlı təqdim olunur. Hacının Nərimanova etdiyi atalığa rəğmən Hacı heç nəyi Nərimanovun başına vurmur. Çünki, Hacının məqsədi o uşaqları özü üçün yetişdirmək deyildi. Hacı ilə Nərimanovun dialoqları çox tutarlıdır. Müdrik insan – Hacı çox doğru olaraq Nərimanovun səhvlərini onun üzünə söyləyir.

“Nərimanov - Geriyə yol yoxdur, Hacı. Mən öz bacarığımla vətənimə dəyəcək zərbələrin təsirini azaltmaq istəyirəm. Əgər Rusiyanın himayəsi olmasa, Azərbaycan bir dövlət kimi yaşaya bilməz, silinər yer üzündən, mən bunu çox götür - qoy etmişəm. Kiçik ölkələr böyük ölkələrə möhtacdır. Bunu unutmaq olmaz, Hacı.

Hacı: Mənim kimi kəmsavad adam sənə dil yetirə bilməz, bala, amma mənim bu qoca, gücdən düşmüş ağlım deyir ki, sən düzgün yolda deyilsən, tez peşman olacaqsan, elə indi də peşmansan. Zorla insanları bərabərləşdirmək olmaz. Bu qoca dünyada həmişə gücsüz güclüyə tabe olub, olacaq da. Bütün cahan füqarayi-kasibənəsi birləşə bilməz. Bu sözdür, quruca söz” (2, s. 470)

Əli Əmirlinin «Mesenat» əsəri tarixi faktlardan, hadisələrdən danışmasına baxmayaraq, təbiəti etibarilə müasir əsərdir və çağdaş dünyamızın problemlərini, suallarını özündə əks etdirə bilmişdir. Bu günün insanına daha praktik olaraq səslənə bilmək üçün müəllif tarixi şəxsiyyəti obraz olaraq təqdim etmiş və insanlığı narahat edən dünya və ölüm, həyatda mövcud olan mizan-tərəzinin işləmə mexanizmi kimi əbədi sualları özünəməxsus interpretasiyada müasir insana çatdırmışdır. «Mesenat» əsərini diqqətlə incələyərkən müəllifin Qurandan - Allahın kitabından qaynaqlanan həyat fəlsəfəsinə sahib olduğunun şahidi oluruq. Bu ideyaların da ana xətti, əsas bucaq nöqtələri əsərdə qəhrəmanların dili ilə çatdırılır. Belə ki, aydındır ki, dramaturji əsərlər müəllif müdaxiləsindən məhrum olduğu üçün müəllif şəxsi dünyagörüşünü, ideyalarını obrazların, hadisələrin, jestlərin və bu kimi vasitələrin istifadəsi ilə çatdırır. Məsələn, əsərdə Hacının həqiqətən hörmət etdiyi, məsləhətlərinə dəyər verdiyi bir şəxs vardır ki, o da Allah əxlaqı ilə yaşayan Axund obrazıdır. Əsərin sonu bir fikri təlqin edir: bu dünyanın bir imtahan, səy göstərərək mükəmməlləşməyə, müdrikliyə aparan akademiya kimi bir məktəb olduğunu göstərmək istəyən müəllif bu məktəbdə əlaçıların ağ üzlə Yaradanın – Nur Sahibinin yanına dönəcəklərini bildirir. “Bütün hər şey Ondan başlayıb, Ona da qayıdacaq” - deyə səslənir müəllif müasirlərinə. Bu səbəbdən də Onun qurduğu mizan – tərəzinin pozulmaması üçün Onun qaydalarına uyğun yaşamaq, hikmətini Onun bildiyi məsələlərdə Ona güvənmək lazımdır.

“Hacı: Görürsənmi işığı, necə çəkib aparır ruhumu, bədənimi hiss eləmirəm, ayaqlarım yoxdur, bir hübabəm ki, havadan doludur piri hənim. Dərs almadım, məktəb görmədim, amma bu az ağlımla bir mətləbi anladım, hər kəs öz əməlinin girovudur. Yaxşı əməl, xeyirxah niyyət heç vaxt unudulmur, amma geci-tezi var, nəhayət, şeytanın da bir yorulan vaxtı olur. Mən şeytana mərhəmətimlə qalib gəldim, bu dünyada ən güclü silahım mərhəmətim oldu. Necə ki, müqəddəs Kitabımız buyur-

muşdur: Kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq möhкəm bağdan - Qurandan, imandan yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır. Buyruq Allahındır. (İşıq o qədər güclənir кi, Hacı görünməz olur, bir növ işıq selinə qarışıb itir)" (2, s. 472).

Beləliкlə, əsərin son epiloqu belə insanları işığa çağırmaqdır. İnsan içindəкi işıqlı məqsədə, sistemə tabe olaraq yaşamalıdır кi, işıq seli yoluna düşsün. Dahi Nizamimizin, Füzulimizin də əsərlərində bu ideya кeçməкdədir. Dörd ünsür olan, yəni torpaqdan, sudan, hava və oddan təşкil olunmasına baxmayaraq, insan bu ünsürlərə bənzəməməli, əкsinə bu dörd elementin qarışığına nurdan həyatiliк, can verən Nur Allahın ipinə sarılaraq işığa, müкəmməlliyə, əbədiliyə can atmalıdır. Çünкi insanın var olma qayəsi çalışaraq, imtahanlardan ləyaqətlə çıxaraq İşığa qovuşmaqdan ibarətdir. Bu əsərin ümumi fonda bağışladığı təsirdir. Müəllifin tarixi gerçəкliкdən bəhrələnərəк müasirlərinə çatdırmaq istədiyi məqamları daha dolğun incələyə bilməк üçün əsərin süjet xətti üzrə inкişaf etdiyi hadisələr ardıcıllığına da nəzər salmalıyıq. Belə кi, müəllifin tarixi fonda təqdim etdiyi hadisələr ardıcıllığındaкı hər repliкada belə müəllifin həyat həqiqətləri haqda fəlsəfi düşüncələri durmaqdadır. Bu təbiidir, çünкi hər bir qələm sahibi dərк etdiyi, anladığı həyat gerçəкliyini, həyat həqiqətlərini silahı olan qələmi ilə bacardığı çərçivədə insanlığa təqdim etməlidir. Sənətкar, ədəbiyyatçı üçün haqqı, gerçəyi istər bədii, istər publisistiк şəкildə dövrünün insanına çatdırması həyat missiyasıdır. Bu missiyanı anlayan, yaşayan dramaturq, Tağıyevin simasında tarixi və əbədi gerçəкliyi bədii şəкildə oxucusuna - tamaşaçısına çatdırmağa səy göstərmişdir.

Əsərin ilк sətirlərindən günümüzün abu-havası duyulmaqdadır. Xüsusi zənginliк, zəngin övladların qayğısı və yenə də, bu gün də «Sənin misкin dediyin bu şəhərdə bütün dünyanın, elə o Peterburqun da gözü var, Sürəyya. Camaat Avropanı, Badenbadeni qoyub bura gəlir, ağzını bu boz torpaqlara dirəyib nöyüt sorur» (2, s. 472).

Sanкi müəllif bu günün insanına səslənməкdədir; ey gözü Ameriкada, Avropada olan həmvətənim, ayıl, Allahının sənə bəxş etdiyi torpağının qədrini bil. Dünyanın gözü səndə iкən sən nədən bu qədər naşüкürsən. Torpağının altı qızıl, üstü qızıl. Oyan, zər qədrini zərgər bilər. Bu torpağın qiymətini bilməzsən, bilənlər gəlib apardıqları кimi, bir daha ayağının altından çəкib aparacaqlar. Oyan, imanına və torpağına, neftinə və sərvətinə sahib çıx. Daha sonralar Hacının narahat olduğu məsələ. Sanкi millət atası övladlarının bu gününü görürmüş, yaxud dünən elə bu gündür. Hacının narahatlığı da heç də yersiz və səbəbsiz deyil.

"Hacı: Axır vaxtlar çox düşünürəm Sona xanımı, narahatlıq кeçirirəm, dünya qarışıb - nədi, elə bil bünövrəsindən laxlayan bir saraydayam, çox qara-qura fiкirlər gəlir ağlıma. Çoxdan unutduğum günahlarım da düşür yadıma. İndicə namaz üstdə dua eləyirdim. Var-dövlətinin, sərvətinin çoxu urus - erməni - alman əlində olan bu vətəni hər tərəfindən söкürlər, yağmalayırlar, millət özü dilənçi кöкündə. Yüz altmış yeddi nöyüt mədəninin vur - tut qırx yeddisi müsəlman əlindədi. Axı bu da bizim günahımızdır" (2, s. 478).

Haqqın haqq olduğunu və qələbəsini dolğun çatdırmaq üçün müəllif əsərə mənfı güc hesab olunan şeytan ordusunun əsgərlərindən olan Falçı obrazını daxil edir. Falçı obrazının səhnəyə gəlişi və bu zaman onun təqdimi belə maraq doğurur. Belə кi, ailə birliкdə şad-xürrəm za-

man keçirdikləri anda Hacının şeytan dediyi və Saranın da şeytanın qardaşı deyə adlandırdıqları Falçı hər ikisinin bu məxluqun evə daxil belə olmasına imtina etdiklərinə rəğmən Hacının yoldaşı Sona xanımın təkidilə otağa daxil olur.

«Sara: Mən falçıya inanmıram. Dinimiz də fala baxmağı da, baxdırmağı da günah bilir.

Hacı: Mənim ağıllı qızım doğru deyir. Falçılar şeytanın qardaşlarıdır» (2, s. 479).

Falçıya bir əyləncə kimi baxan Sona xanımın elə özünə qarşı da çevrilmiş olur. Çağırılmamış qonağın gətirdiyi abu-hava, səhnənin hər anı həyəcanla, gərginliklə zəngindir. Bu səhnə və obraz vasitəsilə müəllif bir çox həyat həqiqətinə, həyat fəlsəfəsinə, yaxud həyatın dövretmə hikmətinə diqqət çəkmək istəyir. Səhnədən həqiqətən məlum olur ki, bu Falçı obrazı Hacının, Saranın anladığı kimi, həqiqətən də, «şeytanın qardaşıdır. Təbii olaraq da o an beynimizdə Hüseyn Cavidin «Kimdir İblis?» sualı canlanmış olur.

Qəribə şəkildə evə soxulan falçı daha qəribə şəkildə evi tərk etmiş olur. Bu obrazı əsərə gətirməkdə müəllifin məqsədi nədir? Hər kəsin gizli, mübhəm, sirli olan mənfi, yaxud müsbət keyfiyyətlərindən söz açan Falçı yalnız Sara xanımın qarşısında baş əyir, yalnız onun cəsarəti, dəyanəti, qüvvəsi, daxili gücü qarşısında baş əyir. Sona xanım isə var-dövlət əsiri olmaqla bərabər, Hacıya da bu səbəbdən ərə getməyi ilə ittiham edir.

«Falçı: Həşəmətli xanım! Var-dövlət, sərvət əsiri. Bu qocaya da şan-şöhrətə görə, milyonlara görə getdin» (2, s. 481).

Artıq bu replika ilə müəllif tərəzinin gözünün əyilməsinə təsir edən səbəblərdən birinə işarə edir. Və şeytan ordusunun əsgəri olan Falçı bu ordunun bütün nümayəndələri kimi insanların zəif yerləri olan şöhrət, mənsəb, pul, var-dövlət, övladların çoxluğu ilə fəxr etmək, bir sözlə bütün bu zəifliklərə mənsub insanların zəif damarlarından tutaraq onlara təsir edə bilirlər. Özü təkəbbürü ucbatından bəlalara mübtəla olan Şeytan hər kəsi də toruna təkəbbür xəstəliyinə mübtəla edərək sala bilir. Beləliklə, qəlbində təkəbbürlüyə meylli olan insan çox asanlıqla tələyə düşür, aldanır, şeytan kimi bəlalara məruz qalır. Nəticədə insanı Allah deyil, özü cəzalandırmış olur. Təbii ki, şərəfli varlıq olaraq yaratdığı insanlarda təkəbbürü sevməyən Yaradan bu baxımdan da təkəbbür xəstəliyindən sağalması üçün insanı bir sıra hadisələr dövriyyəsində yaşadır. Görkəmli filosof Heraklit də təkəbbür xəstəliyinə öz münasibətini bildirmişdir. «Təkəbbürü söndürmək yanğından daha vacibdir» (1, s. 254).

«Falçı: (Qisas alırmış kimi) Sınacaq sənin təkəbbürün. Qovacaqlar səni bu şah sarayından, həsrət qalacaqsan tavanına doqquz min güzgü parçası hörülmüş bu divarına. Dəli olub düşəcəksən küçələrə, əl açıb dilənəcəksən Nikolayevskidə!» (2, s. 482).

Lakin mənən, ruhən güclü insanın qarşısında hər kəs baş əyməkdədir. Necə ki, Saranı və Hacını heç bir vəchlə sındıra bilmədi Falçı. Falçı Hacının mübhəm duyğularına belə toxunursa da, yenə də onu sındıra bilmir. Müəllif bunun sirrini Hacının «məktəb görməsə də» həyatın var olma səbəbini, olum-ölüm fəlsəfəsini gözəl bildiyində, bu səbəbdən də atdığı addımların təmiz məqsədə və səmimiyyətə sahib olmağında görür. Zənginlik Hacının sadəliyini əlindən ala bilməmişdir. Məhz elə bu sadəlik və səmimiyyət də Hacının silahına çevrilir.

«Falçı: And olsun özü oddan törəyib, gildən yapılmış insanın qabağında səcdə etməkdən boyun qaçıran, buna görə də göylərdən qovulmaqla cəzalandırılan Şeytan adlı mələyin varlığına ki, sən ; mənə inanacaqsan, qoca.

Hacı: Əstağfirullah! (Ayağa qalxır)

Falçı: Desəm ki, on yaşında sənin evə gətirdiyin altı qəpiklik ilk qazancına nə aldın, inanarsanmı? Başmaqçı atan o pula aldığı pendir - çörəyi bir çətən külfəti ilə yeyib qurtarandan sonra nə dedi? Deyimmi?

Hacı:(çaşqındır) Necə? Sən...De. Mən o sözləri bu yaşımda bir də eşitmək istəyirəm.

Falçı:(Bir qədər dəyişmiş səslə) Pərvərdigara, şükür və həmdlər olsun sənə ki, biz öz əziz fərzəndimizin zəhmətiylə təhsil etdiyi qazancını yedik.

Hacı:(yavaşca kürsüyə oturur) pərvərdigara, haçan eşitmişəm bu şükürü-həmdi? Eyyy... Kişinin səsi indi də qulağımdadır, əlinin ağırlığı çiynimdədir. O sözlər əllərinin içi daş yonmadan qabar olmuş on yaşlı tifili necə kövrəltdi. Başını aşağı əyib öz-özünə axan gözyaşlarını gizlətmək istədi, mümkün olmadı, hıçqırdı...(Əllərini üzünə çəkir. Saqqalında gözyaşı parıldayır) Lənət sənə şeytan!» (2, s. 482).

Hacı gümanında yanılmamışdır. Falçı həqiqətən də şeytanın qardaşı idi. Başqa cür kim məlum keçmişi bilərək bununla insanı təsiri altına ala bilər. Məsələnin elə bu yerində qeyd edək ki, müəllif bununla hadisələr Kitabından informasiya oğurlayaraq insanları sehrləməyə can atan şeytan ordusunun bu tip bütün əsgərlərinin fırıldaqçı, şarlatan olduğunu qeyd edir.

«Hacı: Bismillah! Hamınız «bismillah» deyin, bu şeytandır.

Falçı: Bu evdə mizan, tərəzi pozulub. Xoşbaxtlıq bu evin bünövrəsini yeyir, o mütləq uçmalıdır.

Sara: Aç üzünü, aç görüm sən kimsən, gözümün içinə bax. Məgər xoşbəxtlik bədbəxtlik gətirə bilər? Aç üzünü!

Falçı: Mənim üzümü görmək istədin? Neynək? Bu da mənim üzüm (Rübəndi qəfil hərəkətlə qopardır. Sifətinin yarısı ağ, yarısı qaradır.) Ha-ha-ha...Oxşayıram qardaşıma? Yaxşı baxın, həyatın özü kimi bir üzüm ağ, o biri qaradır. Burda mizan var, sizdə isə bircə rəngdir -ağ - xoşbəxt, fıravan...Dağılmalıdır bu ev, dağılacaq...ha-ha-ha» (2, s. 483).

Müəllif sanki deyəcəyini, çağırışını Hacının dililə edir, bu bəladan çıxış yolunu göstərir.

«Hacı: ...Lənət şeytana deyin. Sarsaq bir arvadın sərsəm sözlərinə inanmayın. Açın Kitabı qiraət edin, Quran oxunan evə şeytan yaxın dura bilməz. Bir də necəliyini bilmədiyiniz, görmədiyiniz gələcəyin dərdini çəkib ürəyinizə salmayın. Ziyafətə hazırlaşın...Lənət şeytana!»

Beləliklə, Hacının gücü məktəb görmədən belə Oxu əmrinə tabe olmağında imiş. Hacı həqiqi qiraətin pisliklərdən sağalmağın yolu olduğunu göstərir.

Beləliklə, Şeytanın qardaşı olan Falçı hər dəfə insanların zəif məqamlarında və sanki onların öz daxili çarpışması, öz səsi kimi pıçıltıyla, fısıltıyla yaxınlaşdığını görürük. Artıq bolşeviklərin Bakıya daxil olub zəngin insanlara hücumlar etdiyi zaman Sona xanım çox həyəcanlanır, öz canı, övladları, evi, dəb-dəbəli həyatı, daha önəmlisi şöhrəti üçün dəlilik dərəcəsinə çatdıracaq gərginlik halını yaşayır.

«Sona: Yadındadır, Hacı, Berlində «Ekspolenada» otelindəydik rus-alman davası başlayanda? Almanlar ruslara «rus...rusaç..rus» deyib qışqırır, təhqir eləyirdilər. Qafqaz canişini qraf Vorontsov - Daşkovun arvadı həşəmətli Yelizavetanın saçından tutub vağzal meydanında sürüdükləri də yadındadır, eləmi?......Bax, bizi də burjuy deyə-deyə bolşeviklər sürüyəcəklər, Nikolayevskidən üzüaşağı Olginskiyədək. Amma mən... amma... (qəhqəhə çəkir) Mən onlardan bic tərpəndim, Hacı, paltarımı dəyişdim, elə biləcəklər mən qulluqçuyam. Rayanı madam biləcəklər, onu tutub aparacaqlar, amma bilməyəcəklər ki, o madam yox, madmazeldir...(qəhqəhə çəkir.) ha-ha-ha (2, s. 512).

Beləliklə, «İnsan hər sınağa ləyaqətlə dözməlidir» deyən Hacıya Falçı güc gələ bilmədi. Falçı sonuncu dəfə Hacı malını - mülkünü ləyaqətlə tərk etdiyi zaman istehza, rişxənd edərək ona yaxınlaşır. Hacının ləyaqətli, müdrik cavabı və Hacının işığı Falçını yox edir.

«Falçı: Bu fani dünyanın ləzzətindən ayrılmaq çoxmu çətindir?

Hacı: Yox, əsla, çətin deyil. Fani dediyin dünyadan mən əzab-əziyyət çəkmədən ayrılıram. Yüz ildən çox yaşadım bu dünyada, özümü xoşbəxt, firavan, işli-güclü gördüm. Heç kəsə möhtac olmadım, Allahıma tapındım, əl açanları paysız qoymadım. Rəbbim mərhəmətini artırdıqca ruhum təzələndi, cavanlaşdı, bədənimin əsarətindən çıxdı. Kimin ruhu bədəninin əsiridirsə, bu dünyadan ikiəlli yapışır, ölüm ayağında ruhu şivən qoparır, dünyanın yalan ləzzətinə uyan, şeytana aldanan bədəndən ayrı qala bilmir. Mənim cavan ruhumsa bu köhnəlmiş, nimdaş cismimi asanlıqla tərk edir.

«Uzaqdan güclü işıq seli Hacını ahənrüba kimi çəkir. Falçı yox olur» (2, s. 516).

Bu müəllifin insan həyatındakı problemlərə və onların həlli yoluna cavabı idi.

Əsərdə cərəyan edən tarixi fon, siyasi iğtişaşlar yaşandığı zamanla sərhədlənmir, günümüzə qədər səslənməkdədir. İnsanların hər halda özünü, öz yolunu doğru hesab etməsi, digər tərəfin fərziyyələrinə belə qulaq asmadığı anlar da tərəzinin tarazlığının pozulmasına gətirib çıxaran əlamətlərdən biridir. Ümumiyyətlə, müəllif tərəzinin varlığı və tarazlığın pozulduğu anlarda həqiqətən qorxunc halların doğulacağını belə təqdim edir.

«Axund: Bəli, Hacı, dünyanın tarazı pozulub. Göyü O ucaltdı, ədalət tərəzisini 0 qoydu, tərəzini düz tutun dedi, biz eşitmədik, əməlimizlə əydik tərəzini, pozduq dünyanın tarazını. Bir tərəfdə ac millət daşa çapır, o biri tərəfdə sərmayə-sərvət həddini aşıb, əndazə pozulub. Allahın qoyduğu mizan haram əlindədir.....

Hacı. (Axunddan aralanır) Ömrüm uzunu hamıya qənaət etməyi, israfçılıqdan qaçmağı, nəfsini saxlamağı öyrətdim, amma ki, özüm var dövlət içindəyəm. Aclar, səfillər ölkəni başına götürüb, mənim balalarımsa naz-nemət içərisindədir, var-dövlətimin sayı ilə qürrələnir, arvadlarımız brilliant don geyir. Bəlkə mizan burda pozulub? Əlbət, əlbət, tərəzinin gözü burda əyilib. Dünyadan köçmək məqamı yaxınlaşdıqca sərvətim məni daha çox əzir. Yaradanım məndən heç nə əsirgəmədi. Gör necə gəlhagəlimdir ki, səksən sinnimdə mənə qənirsiz bir gözəli bəxş elədi, təzədən iki oğul, üç qız verdi ki, bir-birindən yaraşıqlı. Bir eləyirəm, on bilirlər, mənə millət atası deyirlər. Bəlkə budur mənim günahım? Bəlkə bir şəxsin, bir Allah bəndəsinin taleyində bu qədər xoşbəxt-

liyin olması Allahın özünə də xoş getmir? Necə dedi o falçı: xoşbəxtlik bu evin bünövrəsini yeyir. Əgər belədirsə, pərvərdigara, al mənə verdiklərini, amma...amma balalarıma rəhm elə» (2, s. 493).

Beləliklə, müəllif bütün həyat qanunlarının mizan-tərəzi hikmətinə tabe olduğu fəlsəfəsəni çatdırmağa can atır. Bəli, bu zəngin insanlar kasıblara, millətə yardım etməkdədirlər. Amma hansı məqsəddən və nə dərəcədə? Təbii ki, hər bir işin nəticəsində səbəb və məqsəd durmaqdadır. Görünməyən və gizlin olan bir şeydən təbii ki, yalnız gözlərinin görmə çərçivəsindən xəbərdar olan insan bir şey görə bilməz. Bu məntiqdən çıxış edərək qeyd edə bilərik ki, gizlindən yalnız bu gizlini var edən xəbərdar ola bilər. Bu səbəbdən də hər şeyi bilmək, hər şeydən xəbərdar olmaq insan üçün məhdud bir şeydir. Beləliklə, qeyd etdik ki, insanlar xeyriyyəçiliklə məşğul olurlar. Bəzilərində belə bir qəribə sual doğulur, onda nədən bu insanlar əziyyət çəkirlər. Fikirlərimizin aydın ola bilməsi üçün əsərə müraciət etməmiz məqsədəuyğun olardı.

«Leyla: ...Gəlin axşamkı ziyafətdən danışaq. Deyirlər Liza xanım brilyantlarla dolu bir don tikdirib, onu geyəcək.

Sara: Sonra da deyirlər ki, Ağa Musa simicdir.

Sona: Heç Luiza Muxtarovanı demirsiz? Yəqin o da bir sürpriz hazırlamış olar.

Sürəyya: Şəmsi əminin qızı telefonda mənə dedi ki, Luiza xala Parisdən təzə şlyapa gətirdib, üstündə straus lələyi var, özü də bir kilo. Əli bəy də təzə «Fiat»ında gələcək.

Millət üçün xeyriyyəçiliyin faydasız olduğu, millətin qədirbilən olmadığı, insanların yaxşılığa yamanlıqla cavab verdiyi qənaətində olanlara Hacınm timsalında müəllifin cavabı da maraq doğurur. «Tağıyev: fikir eləmə, Ağa Musa, biz hamımız bu dünyada qonağıq, köçəndən sonra pisliklərimiz müasirlərimizlə ölüb gedəcək, unudulacaq, yaxşı əməllərimiz qalacaq. Necə ki, Qurani-Kərim buyurub: «Bütün canlılar ölümə məhkumdur. Biz sizi xeyir və şərlə sınağa çəkirik» (2, s. 487).

Bir sözlə Əli Əmirli tarixi prizmadan çıxış edərək, oxucusuna bu informasiyanı çatdırır.

«Axund: Hacı, düz buyurursan, bütün bəlaların kökündə avamlıq, nadanlıq dayanır. Əgər insanlar hamısı maarifli olsaydılar, Qurani-Kərimi oxuyub zikr eləsəydilər, şər geri çəkilərdi» (2, s. 490).

Beləliklə, müəllif insanlıq yarandığı zamandan etibarən onu izləyən problemlərin həllini Quran oxumaqda, elm artırmaqda gördüyünü müasirlərinə çatdırır. Müəllifin demək istədikləri yazıçı təxəyyülü olmaqdan çox uzaqdır. Əli Əmirli yazdığına real yanaşan, onları yaşayaraq çatdıran dramaturqlarımızdandır. Fikrimizi hər şeyi gözəl görməyə çağıran müəllifin - onun qəhrəmanının sözləri ilə bitiririk.

«Hacı: Mənim qəlbimə şeytan girməyib ki, pis görəm» (2, s. 483).

Beləliklə, tarixi mövzuya müraciət edən müəllif zaman sərhədlərini aşaraq gözəl həyata can atan müasirlərinə gözəl, rahat həyatın qaranlıqlar, ləkələr olmayan gözəl qəlbdən başladığını bildirir. Tarixi dram janrında yazılmasına baxmayaraq bu gün də müasir dünyamızla səsləşən əsər ideya və problematikasına görə öz müasirliyini uzun müddət itirməyən əsərlərdəndir. Əsərdə qaldırılan problem bir ailənin çərçivəsindən çıxıb, nəinki millət, hətta qlobal problemlər səviyyəsində olduğunu göstərir. Əsərdəki qlobal problem dünya idarəetmə sistemində mövcud mizan-tərəzi məsələsini qabartmaqla bu statusu qazanır. Əsərdə müəllifin

çatdırmaq istədiyi ana xətt ondan ibarətdir ki; yaşanan bütün problemlər Yaradan tərəfindən insanlar üçün inşa olunmuş tərəzininin tarazlığı pozulduğu zaman baş verir. Bir nəfərə pis olacaqsa hər kəsə pis olacaq. Digər ana xətt isə ondan ibarətdir ki, dünyada qazanılan heç bir maddi qüvvə ilə əbədi yaşamaq, var olmaq statusunu qazanmaq mümkün deyil. Əbədi yaşamaq insanın ölümündən, yəni yaşam məkanını dəyişdikdən sonra bu məkanda qoyduğu ehsan, yəni gözəlliklərlə mümkündür. Məsələn, son günlərini çətin maddi durumda yaşayan Tağıyev heç də dünyasını dəyişməyib. O, bu gün də millətin atasıdır, millətin qəlbində yaşamaqdadır. Müəllif Tağıyevi mesenatlığın, xeyriyyəçiliyin simvolu kimi təqdim edir. Ailədə və cəmiyyətdə Allahı sevən, insanları sevən fədakar insan, fədakar vətəndaş, sonra ata. Müəllif müasirlərinə səslənir. Tağıyev bu millətin övladı olduğu üçün bu millətin atasına çevrildi. Cəmiyyəti işığa aparan insanlar yalnız məkanlarını dəyişdiyi andan sonra hər iki dünyada əbədiyyətə qovuşur. Müəllif müasirlərini Tağıyev kimi müdrik olaraq, millətin həm oğlu, həm atası olmağa çağırır. Təsadüfi deyil ki, müsahibələrinin birində dramaturq özü də qeyd edir ki, bu millətin mənəviyyatının, incəsənətinin inkişafı üçün Tağıyevlərə, Nağiyevlərə, Muxtarovlara ehtiyacı var. Əsərin qəmli əhvali-ruhiyyəsinə baxmayaraq, belə bir optimist əhval-ruhiyyə əxz olunur: Dünyanın mizan-tərəzisinin tarazlığı pozulduğu zamanlarda fədakar insanların varlığı sayəsində dünya öz məhvərindən ayrılmayacaq.

## QEYDLƏR:


1. Диоген Лаертский. О жизни, учениях и изречениях знаменитых философов. Москва: 1979, с. 254.
2. Əmirli Əli. 15 pyes. Bakı: Öndər, s.482.


## ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ИСТОРИЧЕСКОЙ ДЕЙСТВИТЕЛЬНОСТИ В ПЬЕСЕ «МЕЦЕНАТ» АЛИ АМИРЛИ


АГИГАТ НАБИГЫЗЫ


### РЕЗЮМЕ


Тема пьесы Али Амирли «Меценат» взята из жизни и сына, и отца народа Гаджи Зейналабдин Тагиева. Этим произведением автор сообщает своим читателям о личном отношении к философии жизни. Так как причину трагических событий и проблем в жизни индивида и в жизни общества автор видит в нарушении равновесия весов, строенном для человечности или мира.

Пьеса Али Амирли «Меценат» может считаться ценным художественным произведением с точки зрения отражения действительной исторической реальности в произведении. Несмотря на то, что сюжет произведения основан на исторических фактах времени, он волнует и заставляет читателя размышлять и одновременно имеет в себе воспитательные примеры. Автор показал читателю или зрителю вечную проблему человечества через историческую призму и это, по сути, является художественным отражением исторической и современной действительности.

Исходя из исторической реальности, Али Амирли призывает своего читателя к размышлениям о человечности, милосердии, доброте, жизни, вере.

Несмотря на печальное настроение сюжета произведения, по идее передается такое оптимистическое настроение: Во время нарушения равновесия в весах земля не выйдет из своей орбиты за счет преданных людей.

## CHAIR OF MODERN AZERBAIJAN LITERATURE THE ARTISTIC REFLECTION OF HISTORICAL REALITY IN PIECE "MESENAT"

**HAQIQAT NABIQIZI**

**SUMMARY**

The theme of the piece was taken from Zeynalabdin Taqiev's life – the son and the father of the nation in his work the author reports to readers about his personal relation to philosophy life. That is why the also suppose that the tragic events and problems in the life of persons and society are the cause and effect of infringement of nation's rules behavior according to the historical reality the Ali Amirli "Mesenat" is the valuable work of art. In spite of historical element the piece sets thinking about rules behavior. The author shouts to reader the perpetual human problems from the historical prism and it is the reflection of modern historical reality.

Being of historical reality Ali Amirli asks his readers to think about humanity, charity, goodness, life, faith. In spite of wistful substance of the subject in the piece we can find out the optimistic feelings: during the breach of balance the earths will stay in the orbited with the help of devoted.